

# Azərbaycan

## Ölkə hesabatı 2025

Funded by:

Federal Office for Migration and Refugees

RETURN

IOM UN MIGRATION

# Nəşriyyatçı

**Beynəlxalq Miqrasiya Təşkilatının Almaniya Nümayəndəliyi (BMqT Almaniya)**

Charlottenstraße 68
10117 Berlin
Germany
T. +49 911 43 000
F. +49 911 43 00 260

iom-germany@iom.int
https://germany.iom.int/

TBu layihə Almaniya Federativ Miqrasiya və Qaçqınlar İdarəsi (BAMF) tərəfindən maliyyələşdirilir.(BAMF).

Federal Office for Migration and Refugees

RETURN

Bu Ölkə Hesabatında qeyd olunan məlumatlar məqsədyönlü və diqqətlə tərtib edilmişdir. BMqT Almaniya burada olan hər hansı bir səhv və ya nöqsanlara görə məsuliyyət daşımır. Həmçinin, BMqT Almaniya bu Hesabatda təqdim olunan məlumatlara əsasən çıxarılan nəticə və ya qəbul edilən qərarlara görə məsuliyyət daşımır.

Könüllü qayıdış və reinteqrasiya ilə bağlı əlavə məlumat üçün http://www.ReturningfromGermany.de portalına daxil olun və ya BMqT-nin Bakı ofisi ilə əlaqə saxlayın. IOM, Sentyabr 2025

Ölkədəki dinamik dəyişikliklər səbəbindən bəzi məlumatlar aktuallığını itirmiş ola bilər.

# Mündəricat

1. Səhiyyə
2. Əmək Bazarı Və Məşğulluq
3. Mənzil Təminatı
4. Sosial Rifah
5. Təhsil Sistemi
6. Uşaqlar
7. Əlaqə Və Faydalı Keçidlər
8. Könüllü Qayıdış Üçün Təlimat
9. Virtual məsləhətləşmə

### Səhiyyə xidməti haqqında ümumi məlumat

Azərbaycanda səhiyyə xidmətləri dövlət və özəl tibb müəssisələri tərəfindən təmin edilir və Səhiyyə Nazirliyi tərəfindən nəzarət edilir. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 dekabr tarixli 2 592 nömrəli Sərəncamına əsasən yaradılmışdır və icbari tibbi sığortanın tətbiqini təmin edən, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən qurumdur.

### İcbari Tibbi Sığorta

2022-ci ildə ölkədə iicbari tibbi sığortanın ölkə üzrə mərhələli tətbiqinə başlanılıb.1 aprel 2021-ci il tarixindən etibarən icbari tibbi sığorta sistemi bütün ölkə ərazisini əhatə edir. Xidmətlər Zərfi icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur. İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar aşağıdakı xidmətləri əldə edə bilərlər:

- Təcili və təxirəsalınmaz tibbi yardım
- İlkin tibbi-sanitariya yardımı
- Ambulator xidmət
- Stasionar xidmət
- Funksional-diaqnostik və laborator müayinələr
- Fizioterapevtik xidmətlər
- Cərrahi əməliyyatlar (o cümlədən həyati vacib, dəyəri yüksək əməliyyatlar)

Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin tam siyahısı və tarifləri ilə buradan tanış ola bilərsiniz https://its.gov.az/page/xidmetler-zerfi-3

Xidmətlər Zərfinə dövlət proqramları çərçivəsində müalicə və müayinəsi nəzərdə tutulan tibbi xidmətlər, kosmetik prosedurlar və plastik cərrahiyyə, stomatoloji xidmətlər, orqan transplantasiyası, süni mayalanma və s. kimi tibbi xidmətlər daxil deyil. Xidmətlər Zərfinə daxil olmayan tibbi xidmətlərdən istifadə edən şəxs öz maliyyə vəsaiti hesabına ödəniş etməlidir.

### Tibbi müəssisələrin və həkimlərin mövcudluğu

Azərbaycanda ictimai xəstəxanalar dövlətə məxsusdur və Azərbaycanda yaşayan şəxslər üçün pulsuz xidmət göstərir. Dövlət müəssisələrinə ambulator xidmət göstərən poliklinikalar, xəstəxanalar, dispanserlər və həm ambulator, həm də stasionar xidmətlər göstərən ixtisaslaşmış xəstəxanalar daxildir. Özəl səhiyyə sektoru son illərdə genişlənərək yüksək səviyyəli xidmət, müasir avadanlıq və yüksək ixtisaslı kadrlar təklif edir.

### Tibbi müəssisələrə qəbul

İcbari tibbi sığortadan istifadə etmək üçün tibb müəssisəsinə müraciət edərkən şəxsiyyət vəsiqəsini təqdim etmək lazımdır. Təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, sığortaolunan səhhətində yarandığı narahatlıqla bağlı ilk növbədə ailə həkiminə müraciət etməlidir. Ailə həkimi uşaqların və böyüklərin xəstəliklərinin profilaktikası, diaqnozu və müalicəsi ilə məşğul olan həkimdir. Ailə həkimləri müalicə edə, tibbi göstəriş əsasında pasiyenti laborator və instrumental müayinələrə, ehtiyac



olduqda isə həkim-mütəxəssisə istiqamətləndirə bilər.

### Dərmanların mövcudluğu və qiymətləri

Dövlət qeydiyyatına alınan dərmanların qiymətləri Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən əvvəlcədən müəyyən edilir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən öncədən təyin olunmuş bəzi dərmanlar səhiyyə müəssisələri tərəfindən yalnız dövlət xəstəxanalarında/klinikalarda pulsuz təmin edilməlidir. Ödənişsiz dərman reseptləri əsasında verilən dərmanların siyahısı: http://sehiyye.gov.az/imtiyazli-derman-preparatlar.html



### COVID-19 haqqında ümumi məlumat:

Vətəndaşlar Koronovirusla bağlı məlumatları İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 1542 nömrəli Çağrı mərkəzinə zəng etməklə əldə edə bilərlər. Koronovirusla bağlı xətt 7/24 saat fəaliyyət göstərir. Respirator xəstəlik əlamətləri (qızdırma, halsızlıq, öskürək, ürəkbulanma, nəfəs darlığı) hiss etdikləri halda vətəndaşlar dərhal 103 (Bakı daxili) və ya 113 (Bakıdan kənar) Təcili tibbi yardım nömrələrinə zəng edə bilərlər. Habelə, əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, +994 12 505 13 33 nömrəli qaynar xətləri fəaliyyət göstərir. Vətəndaşlar və tibb işçiləri üçün təlimatların və COVID-19 ilə əlaqəli ən yenilənmiş məlumatların təqdim edilməsi məqsədilə xüsusi veb sayt (https://koronavirusinfo.az/az) yaradılmışdır.

Beynəlxalq təcrübəyə uyğun olaraq Koronavirus infeksiyalarının laborator diaqnostikası üçün ölkədə xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirilib. Xüsusi ayrılmış tibb müəssisələrindəki laboratoriyalar ÜST-ün müəyyən etdiyi bütün biotəhlükəsizlik və digər keyfiyyət standartlarına tam uyğun qurulub, analizlər yüksək ixtisaslı kadrlar tərəfindən icra olunur, test nəticələrinin düzgünlüyünə xüsusi proqramlarla nəzarət edilir. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılmışdır. (Mənbə: https://its.gov.az/; https://covid19.isim.az/)

### Vaksinasiya

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq 18 yanvar 2021-ci il tarixindən etibarən peyvəndlənmə prosesinə başlanılıb. Vaksinasiya prosesində yaşı 18 və daha yuxarı şəxslər iştirak edir.

Vasksinasiyada "Sinovac", "Sputnik V" və "Pfizer" vaksinlərindən istifadə olunur. COVID-19 xəstəliyi əleyhinə hər iki doza üzrə vaksinasiya olunanlara peyvənd sertifikatı verilir.

Prosesin nizamlı təşkil olunması məqsədilə peyvənd olunmaq istəyən şəxslər "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə Koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidirlər.

Beləliklə, vətəndaş seçdiyi peyvənd məntəqəsi, tarix, saat və məkana əsasən tibb müəssisəsinə yaxınlaşmalı və peyvəndin birinci dozasını vurdurmalıdır. Peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. İlkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir. Mənbə: https://its.gov.az/, https://koronavirusinfo.az/az


Photo: IOM Azerbaijan

1 Səhiyyə

**Qayıdan şəxslər üçün**

**Uyğunluq meyarı və tələblər**: Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli, 360-IQ saylı Əhalinin sağlamlığının qorunması haqqında Qanuna əsasən, dövlət mülkiyyətində olan xəstəxana və müalicə şöbələrində tibbi xidmətlər ödənişsiz göstərilməlidir. Vətəndaşın etibarlı şəxsiyyət vəsiqəsi varsa, dövlətə məxsus səhiyyə müəssisələrində müalicə almaq üçün heç bir məhdudiyyət yoxdur.Əmək müqaviləsi ilə işləyən şəxslər, mülki-hüquqi müqavilələr üzrə işlər (xidmətlər) həyata keçirən fiziki şəxslər və vergi ödəyicisi kimi qeydiyyata alınan fiziki şəxslər istisna olmaqla hər kəs icbari tibbi sığorta haqlarının ödənilməsindən azaddır. Onların sığorta haqları dövlət büdcəsindən ödəniləcəkdir. İcbari tibbi sığorta müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara, həbs edilmiş şəxslərə, müəyyən müddətə və ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla), Miqrasiya Məcəlləsinə əsasən respublikada müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (Azərbaycan Respublikasında qaçqın statusu almış və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Azərbaycandakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) şamil edilmir.

**Qeydiyyat proseduru:**

İcbari tibbi sığorta üzrə qeydiyyat proseduru aşağıdakı kimidir:

- Sığortaolunan yaşadığı ərazi üzrə ən yaxın olan ilkin səhiyyə xidmətini göstərən dövlət tibb müəssisəsinə (poliklinika/Ailə Sağlamlıq Mərkəzi/kənd həkim məntəqəsi) müraciət etməlidir
- Ərizə dolduraraq ailə həkimini seçməlidir
- Qeydiyyatçı ərizə ilə yanaşı, şəxsiyyət vəsiqəsini və yaşadığı ünvan üzrə qeydiyyata dair sənədi də təqdim etməlidir
- Sığortaolunan ailə həkimini seçmədiyi halda "Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası" əsasında ailə həkiminə təhkim olunacaq.

Tələb olunan sənədlər: Etibarlı şəxsiyyət vəsiqəsi.

## Əmək bazarı haqqında ümumi məlumat

Azərbaycan Respublikasında son illərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Əhalinin məşğulluğunu təmin etmək məqsədilə yeni iş yerləri, müəssisələr, infrastruktur obyektləri və s. yaradılmışdır.

2023-cü ildə ölkədə işçi qüvvəsinin sayı 2010-cu illə müqayisədə 662,23 min nəfər artaraq 5249,7 min nəfər olmuş, onların da 4963,3 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 286,4 min nəfərini isə işsiz əhali təşkil edir. Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2010-cu ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 26,4 faizini təşkil edirdisə, 2023-cü i ildə bu göstərici 21,4 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,2 dəfə artmışdır. 2023-cü ildə istehsal sahələrində (kənd təsərrüfatı və balıqçılıq, sənaye, tikinti) 2554,4 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,5 faizi qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 2408,9 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 48,5faizini təşkil etmişdir. 2023-cü ildə iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayından 1745,5 min nəfəri və yaxud 35,2 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur. 2010-2023-cü illər ərzində



Photo: IOM Azerbaijan



muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2,8 dəfə artaraq 933,9 manat təşkil etmişdir. (Mənbə: https://www.stat.gov.az/source/labour/?lang=en)

## Məşğulluq

Dövlət Məşğulluq Agentliyi aktiv məşğulluq tədbirlərinin təşkili, işsizlikdən sığorta vəsaitinin idarə edilməsi, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi ilə bağlı tədbirlərin, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl olunmasına nəzarətin, habelə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə əmək bazarının təhlili və qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması ilə bağlı nəzarət tədbirlərinin həyata keçirilməsi, bununla bağlı maarifləndirmə, məlumatlandırma, təbliğat işinin təşkili sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Agentlik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərir və rayon/şəhər məşğulluq mərkəzləri vasitəsilə məşğulluğa yardım fəaliyyəti göstərir.

## İşsizliyin aradan qaldırılmasına dəstək/yardımlar

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işsizliklə bağlı yardım göstərir. İşsiz statusu almış vətəndaşlar işsizliyin başlanmasından (şəhər, rayon məşğulluq mərkəzində işaxtaran kimi qeydiyyata alındığı gündən) əvvəlki 12 ay ərzində 26 təqvim həftəsindən az olmayan müddətdə haqqı ödənilən işə malik olduqda, onların işsizlik müavinəti axırıncı iş yerindəki son 12 ay üzrə hesablanmış orta aylıq əmək haqqının 70 faizi məbləğində müəyyən edilir. Həmçinin, işsizin himayəsində 18 yaşa çatmamış uşağı olduqda, işsizlik müavinətinin məbləği hər bir uşaq üçün müavinətin 10 faizi məbləğin, lakin 50 faizindən artıq olmamaq şərti ilə artırılır. Əgər ailədə hər iki valideynə işsizlik müavinəti müəyyən edilmişdirsə, hər uşaq üçün 10 faiz artım valideynlərdən birinə şamil edilir. Müavinət 12 aylıq dövr ərzində 26 təqvim həftəsi üçün nəzərdə tutulur. Əgər şəxs işsiz statusu aldıqdan 12 ay sonra hələ də münasib işlə təmin olunmayıbsa, onun təkrarən müavinət almaq hüququ vardır. Bu zaman həmin şəxsə müavinət minimum məbləğdə təyin olunur.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məskunlaşaraq işləyən mütəxəssislərin ilkin maddi-məişət şəraitinin dəstəklənməsi məqsədilə onlara birdəfəlik müavinətin (600 manat) təyin olunmasına başlanıb. Birdəfəlik müavinət elektron sistem üzərindən proaktv qaydada, yəni həmin işçilərin müraciət etməsinə və sənəd təqdim olunmasına ehtiyac olmadan həyata keçirilir. Sosial müavinətin təyin olunması üçün şəxs müavinət almaq hüququ yarandıqdan sonra yaşayış yeri üzrə Dövlət Sosial Müdafiə Fondunun struktur bölməsinə, "DOST" mərkəzinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə» müraciət edə bilər.

### Qayıdan şəxslər üçün

Uyğunluq meyarı və tələblər: Aşağıdakı şəxslərin işsiz kimi qeydiyyata alınmasına icazə verilmir:

- 15 yaşdan kiçik uşaqlar.
- Ali və orta ixtisas təhsili müəssisələrində əyani təhsil alan tələbələr.
- "Əmək pensiyaları haqqında" və ya "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaşa görə təqaüd və ya yaşa görə müavinət alan şəxslər.
- Azərbaycan Respublikasının Əmək Məcəlləsində göstərilən hallar istisna olmaqla, 6 (altı) ay müddətində göstərilən müddətdən öncə öz təşəbbüsü ilə göndəriş əsasında bağlanan əmək müqaviləsinə xitam verən şəxslər

Qeydiyyat proseduru: İşsiz və işaxtaran kimi məşğulluq mərkəzində qeydiyyata durmaq qaydası:

- Məşğulluq mərkəzlərində işsiz və ya işaxtaran şəxs kimi qeydiyyata durmaq mümkündür.
- Şəxslər elektron informasiya sistemində elektron ərizəni doldurduqdan sonra işaxtaran kimi qeydiyyata alınırlar.
- Şəxs işaxtaran kimi qeydiyyata alındığı zaman onun elektron informasiya sisteminə daxil etdiyi məlumatlar əsasında elektron qaydada fərdi məşğulluq vərəqi tərtib edilir.
- Şəxs işaxtaran kimi qeydiyyata alındığı gündən 5 (beş) iş günü ərzində ona münasib iş təklif olunmadığı və ya işəgötürən (işəgötürənlər) tərəfindən vakansiyaya qəbulundan imtina edildiyi halda, məşğulluq mərkəzi həmin şəxsin işsiz kimi qeydiyyata alınması haqqında qərar qəbul edir və bu barədə şəxsin fərdi məşğulluq vərəqində müvafiq qeyd aparır.
- İşaxtaran və işsiz şəxslər fərdi məşğulluq vərəqindən çıxarışı elektron informasiya sistemindən real vaxt rejimində əldə etmək hüququna malikdirlər.
- İşaxtaran və işsiz kimi qeydiyyata alınmış şəxslərin ixtisası, peşəsi, sağlamlıq imkanlarının məhdudluğu və yaşayış ünvanı üzrə məlumatlar dəyişdiyi halda onlar elektron informasiya sistemində bu barədə məlumatları yeniləməlidirlər.

Tələb olunan sənədlər:

- Şəxsiyyətini təsdiq edən sənəd. əmək kitabçası (yaxud onu əvəz edən sənəd).
- peşə və ya ixtisasını təsdiq edən sənəd (zəruri hallarda).

2 Əmək Bazarı və Məşğulluq

Əmək Məcəlləsinə əsasən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə peşə, orta ixtisas və ali təhsil müəssisəsini bitirmiş və son 5 il ərzində azı 2 il əmək stajı olan, azad edilmiş ərazilərdə əmək müqaviləsi əsasında işləyən işçilər aiddir. (Mənbə: https://sosial.gov.az/)

### Əlavə təhsil və peşə təhsili

Məşğulluq mərkəzlərində qeydiyyata alınmış işaxtaran və işsiz şəxslərin peşə hazırlığı məşğulluq mərkəzinin göndərişi ilə aşağıdakı hallarda həyata keçirilir:

Məşğulluq mərkəzlərində qeydiyyata alınmış işaxtaran və işsiz şəxslərin peşə hazırlığı məşğulluq mərkəzinin göndərişi ilə aşağıdakı hallarda həyata keçirilir:

- işaxtaran və işsiz şəxslər lazımi peşə və ya ixtisası olmadığına görə onun üçün münasib iş seçmək mümkün olmadıqda
- işaxtaran və işsiz şəxs əvvəlki peşə (ixtisas) üzrə işləmək qabiliyyətini itirdikdə

İşsiz şəxslərin peşə hazırlığı məşğulluq mərkəzi tərəfindən ödənişsiz təşkil olunur. İşaxtaran şəxslər peşə hazırlığına ödənişli əsaslarla cəlb olunurlar.

Peşə hazırlığının təşkili zamanı 3 ildən artıq müddətdə işləməyənlər və ya peşəsi (ixtisası) olmayanlar üstün hüquqa malikdirlər. İşsizlikdən sığorta ödənişi alan işsiz şəxs peşə hazırlığına cəlb olunduqda ona işsizlikdən sığorta ödənişi aldığı dövrdə təqaüd verilmir.



Photo: IOM Azerbaijan

## Mənzil təminatı haqqında ümumi məlumat

Azərbaycanda iki növ mənzil təminatı üstünlük təşkil edir: tək ailəli fərdi ev və çox ailəli yaşayış evləri. Əlavə mənzil növlərinə yataqxanalar, kommunal mənzillər və bağ evləri daxildir. Azərbaycanda əmlak birinci və ya ikinci dərəcəli olaraq təsnif edilir. Birinci dərəcəli mənzillər 2001-ci ildən sonra, ikinci dərəcəli mənzillər isə Sovet dövründə tikilmişdir. Birinci dərəcəli mənzillərin qiymətləri ikinci dərəcəli mənzillərin bazar qiymətlərindən yüksəkdir. (Mərkəzdə yerləşən və populyar və tarixi yerlərdən piyada məsafədə yerləşən ikinci dərəcəli mənzillər istisna olmaqla).

Kirayə mənzillər üçün orta qiymətlər:
- Şəhərin mərkəzi ərazisində 2 otaqlı mənzil: Bakı - 300-350 € / Gəncə - 100-150 €
- Şəhərin mərkəzi ərazisindən kənar-da 2 otaqlı mənzil: Bakı - 150-200 € / Gəncə - 50-100 €
- Şəhərin mərkəzi ərazisində 4 otaqlı mənzil: Bakı - 600-650 € / Gəncə - 200-250 €
- Şəhərin mərkəzi ərazisindən kənarda 4 otaqlı mənzil: Bakı - 300-350 € / Gəncə - 150-200 €

Mənzillərin orta satış qiymətləri (1 $m^2$ üçün):
- Şəhərin mərkəzi ərazisində: Bakı - 1200-1400 € / Gəncə - 400-500 €
- Şəhərin mərkəzi ərazisindən kənarda: Bakı - 600-800 € / Gəncə - 200-300 €

Kommunal xidmətlərin qiymətləri aşağıdakı kimidir:
Su: 1 $m^3$ = 0.7 AZN (Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə) və 0.6 AZN (digər bölgələrdə).
Qaz: 1 kub metr = 0.12 AZN (illik istehlak həcminin 1200 $m^3$ -dək olan hissəsi üçün), 0.2 AZN (lik istehlak həcminin 1200 - 2500 $m^3$ olan hissəsi üçün), 0.25 AZN (illik istehlak həcminin 2500 $m^3$ -dən çox olan hissəsi üçün)

Elektrik: 1 kilovat-saat = 0.08 AZN (aylıq istehlak həcminin 200 kVts-a qədər olan hissəsi üçün), 0.09 AZN (aylıq istehlak həcminin 300 kVts-a qədər olan hissəsi üçün), 0.13 AZN (aylıq istehlak həcminin 300 kVts-dan çox olan hissəsi üçün).

### Mənzil axtarışı

Mənzil tapmaqda xidmət göstərən bir sıra özəl şirkətlər var və xidmət haqları müxtəlifdir. Bundan əlavə, Azərbaycan və rus dillərində olan bir neçə əmlak veb saytları mövcuddur:

https://bina.az/
https://yeniemlak.az/
https://vipemlak.az/

### Mənzil təminatı üzrə sosial yardım

Azərbaycan Respublikası Prezidentinin "Dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 24.11.2016-cı il tarixli 1125 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyi əsasında Mənzil İnşaatı Dövlət Agentliyi publik hüquqi şəxsi yaradıldı. Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin əsas məqsədi ölkə vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək, habelə bununla bağlı şəhərsalma və tikinti sahələrində dövlət idarəetməsini təkmilləşdirməkdir.

3 Mənzil Təminatı

Qayıdan şəxslər üçün

Uyğunluq meyarı və tələblər: Yaşı 35-dən çox olmayan gənc ailə üzvləri:
- şəhid ailəsinin üzvü (əri/arvadı, övladları).
- Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı, övladları).
- Milli Qəhrəman (özü, əri/arvadı, övladları).
- məcburi köçkün və ya ona bərabər tutulan şəxs.
- ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs.
- ən azı 3 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs
- fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs.
- idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer).
- ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs.

Yaşından və ailə vəziyyətindən asılı olmayaraq digər şəxslər:
- ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs.
- ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları («Hərbi vəzifə hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla).
- ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs.
- ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər (müraciətləri qəbul edilən elmi işçilərin çalışdığı elmi müəssisə və təşkilatların siyahısı) http://mida.gov.az/mmc/?/az/rules/siyahi.
- ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs.
- ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs.

Qeydiyyat proseduru: Qeyd olunan şəxslər «Güzəştli mənzil» sistemi vasitəsilə müraciət edib qeydiyyatdan keçdikdən sonra mənzil seçə biləcəklər. «Güzəştli mənzil» elektron sistemi iki pilləlidir. İlkin mərhələdə ərizəçinin verdiyi məlumatlara əsasən təsdiqlənmiş kateqoriyaya aid olub-olmaması yoxlanılacaqdır. Müraciətə 5 iş günü ərzində baxılacaq və qeydiyyat barədə qərar veriləcəkdir. Növbəti mərhələdə, satışa çıxarılan mənzillər elan edildikdən sonra sosial mənzil almaq hüququ olan və sistemdə qeydiyyatdan keçmiş şəxs, otaqların və mərtəbələrin sayını göstərərək ünvana əsasən mənzili seçərək elektron sistem vasitəsilə mənzili əldə edə biləcəkdir. Qaydalara görə, yalnız layihə üzrə tikinti işlərinin 30 faizinin və ya daha çoxunun tamamlandığı binalardakı mənzillərin satışı elan edilə bilər. Elan satışın başlamasından ən azı 30 gün əvvəl verilməlidir.

Tələb olunan sənədlər:
https://mida.gov.az/elektron-xidmetler/gms

## Ümumi məlumat

Sosial müavinətlər ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödəmələr şəklində təyin edilir və ödənilir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilər bu Qanunla Azərbaycan Respublikası vətəndaşları üçün (dövlət qulluqçularına ömürlük müavinət istisna olmaqla) müəyyən edilmiş şərtlərlə və qaydada aylıq və birdəfəlik müavinət almaq hüququna malikdirlər.

Sosial müavinətlər:

- Hamiləlik və doğuma görə müavinət
- Uşağın anadan olmasına görə birdəfəlik müavinət.
- 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət.
- 3 yaşınadək uşağa qulluğa görə müavinət.
- Beşdən çox uşağı olan qadınlara müavinət.
- Yaşa görə müavinət.
- Əlilliyə görə müavinət.
- Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinət
- Ailə başçısını itirməyə görə müavinət
- Şəhidin 16 yaşına (ümumtəhsil məktəblərində təhsil alanlar üçün 18 yaşına) çatmamış uşaqlarına aylıq müavinət.
- Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının 16 yaşına (ümumtəhsil məktəblərində təhsil alanlar 18 yaşına) çatmamış uşaqlarına aylıq müavinət.
- Müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların 16 yaşına (ümumtəhsil məktəblərində təhsil alanlar üçün 18 yaşına) çatmamış uşaqlarına aylıq müavinət.
- Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət.
- Radiasiya qəzası nəticəsində zərərçəkmiş şəxslərə hər il müalicə üçün birdəfəlik müavinət.
- Dəfn üçün birdəfəlik müavinət.
- Cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik müavinət.
- Dövlət qulluqçularına ömürlük müavinət.
- Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət.
- Şəhid ailəsinin üzvlərinə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət.

## Pensiya sistemi

Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla pensiya “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 3 fevral 2025-ci il tarixli Qanununa əsasən, əmək pensiyasının minimum məbləği 2025-ci il fevralın 1-dən 320 AZN məbləğində müəyyən olunmuşdur. 3 növ əmək pensiyaları mövcuddur:

- yaşlılıq əmək pensiyası.
- əlillik əmək pensiyası.
- ailə başçısını itirməyə görə əmək pensiyası.

Yaşlılıq əmək pensiyasından əlillik əmək pensiyasına keçid istisna olmaqla, əmək pensiyaçısı bir növ əmək pensiyasından digərinə keçmək hüququna malikdir. Yaşa və əlilliyə görə əmək pensiyaları baza hissəsi, sığorta hissəsi və yığım hissələrindən ibarətdir. Əmək pensiyasının sığorta hissəsi fərdi hesabın sığorta hissəsində qeyd olunan pensiya kapitalının gözlənilən pensiya dövrünün ay sayına nisbəti olaraq hesablanan məbləğdir. Əmək pensiyasının yığım (qənaət) hissəsi əmanət hesabına yığılan pensiya kapitalının gözlənilən pensiya ayının sayına nisbəti olaraq hesablanan məbləğdir. Ailə başçısını itirməyə görə əmək pensiyası yalnız sığorta hissəsindən ibarətdir. 1 iyul 2024-cü ildən 30 iyun 2025-ci ilə qədər kişilər üçün pensiya yaş həddi 65, qadınlar üçün isə 63 il 6 aydır. 1 iyul 2026-cı ilə qədər hər iki qrup üzrə yaş həddi 65 olacaqdır.

## Həssas əhali qrupları

Ünvanlı dövlət sosial yardımı (ÜDSY) dövlət tərəfindən aztəminatlı ailələrə aylıq verilən pul yardımıdır. Sosial yardım dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 2 il müddətinə təyin olunur.

Aztəminatlı ailə sosial yardım almaq üçün təkrar müraciət etmək hüququna malikdir. Orta aylıq gəliri onlardan asılı

olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan (hazırda ehtiyac meyarının həddi 285 manat təşkil edir) aşağı olan aztəminatlı ailələr ÜDSY almaq hüququna malikdirlər. Aztəminatlı ailələr ehtiyac meyarının məcmusu ilə orta aylıq gəlirinin arasındakı fərq məbləğində ünvanlı dövlət sosial yardım alırlar.

## Özünüməşğulluq

Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes-plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir. Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Belə ki, proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının üstün tərəflərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması.
- Mikro və kiçik sahibkarlığın inkişafı
- Yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması.
- İctimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması.
- Yoxsulluq səviyyəsinin azaldılması
- İqtisadiyyatda inkluzivliyin gücləndirilməsi.

Özünüməşğulluq proqramında iştirak bir neçə mərhələdən ibarətdir. İlk növbədə, iştirak etmək üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarında (şəhər, rayon məşğulluq mərkəzlərində) qeydiyyatdan keçmək lazımdır. Nazirlik tərəfindən məşğulluq orqanlarında işsiz və işaxtaran kimi qeydiyyata alınmış və özünüməşğulluq fəaliyyətini qurmaq üçün potensial imkanlara malik şəxslər müəyyən olunur və biznesin təşkili ilə bağlı bir aylıq təlim kurslarına cəlb edilirlər. Beynəlxalq Əmək Təşkilatının baş təlimçisinin iştirakı ilə hazırlanmış təlimçilər tərəfindən keçirilən təlim kurslarında iştirakçılar biznes fəaliyyətinin təşkili ilə əlaqədar zəruri bilik və bacarıqlara yiyələnirlər. Kursları başa vuran və qiymətləndirmə zamanı biznes-planları uğurlu hesab edilən işsiz və işaxtaran şəxslərin seçdikləri iqtisadi fəaliyyət növləri üzrə özünüməşğulluq fəaliyyətinin təşkili üçün onlar aktivlərlə təmin olunurlar. Bu aktivlər natura şəklində material, avadanlıq və digər əmlak formasında 1 (bir) il müddətinə müqavilə əsasında verilir. Müddətinə müqavilə əsasında verilir. Aktivlər verildikdən sonra da proqram iştirakçılarına biznesin idarə edilməsi və inkişafı ilə bağlı müvafiq məsləhətlərin verilməsi təmin edilir və özünüməşğulluq fəaliyyətinin 1 il ərzində monitorinqi aparılır. Müqavilə müddətinin sonunda həmin şəxsin fəaliyyəti təqdim edilmiş biznes-plana uyğun olduqda, verilmiş əmlak özünüməşğulluğa cəlb olunmuş şəxsin mülkiyyətinə verilir. (Mənbə: http://sosial.gov.az/)

Qayıdan şəxslər üçün

Uyğunluq meyarı və tələblər: Orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan (hazırda ehtiyac meyarının həddi 285 manat təşkil edir) aşağı olan aztəminatlı ailələr ÜDSY almaq hüququna malikdirlər. Orta aylıq gəliri onlardan asılı olmayan səbəblər dedikdə aşağıdakı hallar nəzərdə tutulur:

- Şəxsin əlil olması.
- Şəxsin əmək pensiyaçısı olması.
- Şəxsin birinci qrup əlilə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq etməsi.
- Şəxsin 23 yaşadək əyani təhsil alması.
- Şəxsin Dövlət Məşğulluq Xidmətinin yerli orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması.
- Şəxsin azadlıqdan məhrum edilməsi.

**Qeydiyyat proseduru:** Təmsilçi kompüter və ya mobil telefonlardan istifadə edərək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet səhifəsində (www.sosial.gov.az) yerləşdirilmiş VEMTAS pəncərəsinə və ya elektron hökumət portalında (www.e-gov.az) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xidmətləri siyahısında "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" bölməsinə daxil olmaqla elektron qaydada Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsisteminə müraciət edir.

4 Sosial Rifah

Müraciət qeydiyyata alındıqdan sonra kompüterin ekranına VEMTAS tərəfindən bu barədə məlumat göndərilir. Bu tarix ailənin sosial yardımın alınması üçün müraciət etdiyi gün sayılır.

Tələb olunan sənədlər: Ailəni təmsil edən yetkinlik yaşına çatmış və əmək qabiliyyətli şəxs ÜDSY-nin alınması üçün müraciət edə bilər. Bunun üçün aşağıdakı sənədləri əldə etməlidir:

- Yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin ailə tərkibi haqqında arayışı.
- Həmin arayışa əsasən notariat orqanı tərəfindən təsdiq edilən təmsilçilik barədə ərizə.



Photo: Unsplash 2016/ Danie Franco

### Təhsil sistemi haqqında ümumi məlumat

